Finding seeds for the future

# Avropanın bitki müxtəlifliyinə pəncərə

Sentyabr 2007

## Ölkə öhdəliklərinə və Beynəlxalq öhdəliklərə həsr olunmuş iclas

2001-ci ildə Avropa bitki genetik ehtiyyatları üzrə informasiya sisteminə olan ehtiyacını bitki genetik ehtiyyatlarının milli inventarizasiyalarının işlənib-hazırlanması və Avropada saxlanılan *ex situ* bitki kolleksiyalarının axtarış kataloqu olan EURİSCO-nun yaradılması ilə ödədi. Belə bir sistemin yaradılmasına çağırış Ərzaq və Kənd Təsərüfatı üzrə Bitki Genetik Ehtiyatlarına dair Beynəlxalq Müqavilə, eləcə də Ərzaq və Kənd Təsərüfatı üzrə Bitki Genetik Ehtiyatlarının Mühafizəsi və Davamlı İstifadəsi ilə bağlı Qlobal Fəaliyyət Planında öz əksini tapmışdı.

EURİSCO, həmçinin, bioloji müxtəlifliyin qorunub saxlanması və davamlı istifadəsi ilə bağlı informasiya mübadiləsini asanlaşdırmaq üçün Bioloji Müxtəlifliyə dair Konvensiyanın öhdəliklərini yerinə yetirir və bu da Pan-Avropa Bioloji və Landşaft Müxtəlifliyi Strategiyasına öz tohfəsini verir.

EURİSCO axtarış kataloqu, rəsmi olaraq, fəaliyyətinə 2003-cü ilin sentyabr ayından başlayıb.

## Axı nədir bu

URİSCO internet şəbəkəsinə əsaslanan bir kataloqdur ki, bu da bütün Avropa üzrə *ex situ* bitki kolleksiyalarına aid informasiya verir. O, hal-hazırda 35 ölkədən 1300 cins və 8500 növü əhatə edən bitki müxtəlifliyinin 1 066 884-dən artıq nümunəsi haqqında pasport məlumatlarından ibarətdir. Buradakı bitki müxtəlifliyi nümunələri Avropada *ex situ* saxlanılan nümunələrin yarısından çoxunu və bütün dünya üzrə saxlanılan nümunələrin təxminən 18 %-ni təşkil edir.



Daha çeşidli ərzaq məhsullarına olan bu günkü ehtiyac bitki genetik müxtəlifliyinin daha çox növündən istifadə olunmasını tələb edir

Beynəlxalq standartlara əsaslanaraq işlənib-hazırlanmış (inkişaf etmiş) EURİSCO – *ex situ* bitki kolleksiyaları haqda informasiya üzrə bir “vahid məntəqə”-dir ki, istifadəçilərə kənd təsərrüfatı bitkiləri, yem bitkiləri, yabanı və alaq bitkiləri növləri, fermer sortları və seleksiya xəttləri üzrə informasiya axtarışı imkanı, habelə onların əldə edilməsi hüququnu verir; EURİSCO – bitki, taksonomiya, mənşə ölkə, coğrafi məlumatlar, əldə edilmə mənbəyi, nümunənin statusu və digər meyarlar vasitəsilə axtarış aparmağa imkan yaradır.

## EURİSCO necə işləyir və onun işində kimlər iştirak edir

Milli invetarizasiyaların yaradılması üçün imkanları gücləndirmək yolu ilə, EURİSCO sürətli bir giriş məntəqəsi yaratdı ki, oradan onların axtarışını təşkil etsin. Hər bir ölkə özünün milli inventarizasiyasında informasiyanın yararlılığı, dəqiqliyi və şəbəkəyə yüklənməsi üzrə qərar çıxarmaq üçün tam məsuliyyət daşıyır və suveren hüquqlara malikdir.

EURİSCO-nun Avropa ölkələri üzrə milli yerli nümayəndələri özlərinin bitki genetik ehtiyatları üzrə ölkə inventarizasiyalarını tədricən şəbəkəyə yüklədikləri üçün bu kataloq genişlənmiş və təkmilləşmişdir.

Azerbaijan Genetic Resources Institute

ECP/GR

Bioversity International



Genebank nümunələri becərmə, tədqiqat və təlim üçün, beləliklə də, ərzaq təhlükəsizliyini inkişaf etdirmək məqsədilə, real və potensial faydalı genetik materialın repozitoriyasını təqdim edir

## EURİSCO nə işlə məşğuldur

EURİSCO nəinki qərar qəbul edən şəxslərə, o, eyni zamanda, genebank menecerlərinə, kuratorlara, alimlərə, seleksionerlərə, fermerlərə, tələbələrə və adi adamlara Avropa ölkələrində saxlanılan *ex situ* nümunələrinin məlumatları üzrə sorğunu cavablandırmaqla informasiya əldə etməyə imkan yaradır.

## Gələcəyi necə görürük

EURİSCO özünün II mərhələsində mövcud informasiyanın və daim artan funksiyaların dəqiqliyinin yaxşılaşdırılmasını və onun miqyasının artırılmasını davam etdirərək, diqqətini milli inventarizasiyalara və onların rəhbər şəxslərinə dəstək verməyə yönəldəcək. Həmçinin, internet xidməti vasitəsi ilə digər informasiya mənbələrinə giriş linkləri olan qlobal giriş nöqtəsi vasitəsilə *ex situ* və *in situ* məlumatları bir araya gətirən Avropa informasiya sistemi yaratmağa çağırmaqla məşğul olunacaq.

Gələcək nəsillər üçün bitki genetik ehtiyatlarının əsl mahiyyətinin anladılması və ondan alınan faydalar kimi informasiyaların əldə edilməsini təmin etməklə gələcək qurulmaqdadır. Dünyanın digər regionlarında belə fəaliyyətlərin başlanması təşəbbüsləri hal-hazırda həyata keçirilmə mərhələsindədir.





Ənənəvi biliklər və kultura müxtəlif məqsədlər üçün müxtəlif üsullarla istifadədə olan bitki müxtəlifliyini inkişaf etdirir

Fotoşəkillər E. Bettencourt və S. Dias ındır
İngiliscədən tərcümə və sənədin hazırlanması Məhəmməd Nəcəfzadə və Afiq Məmmədovundur

European Cooperative Programme
for Plant Genetic Resources (ECPGR)
Bioversity International
Via dei Tre Denari, 472/a
00057 Maccarese, Rome, Italy
Tel: (+39) 066118204
Fax: (+39) 0661979661
Email: eurisco@ecpgr.org
http://eurisco.ecpgr.org